**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN KİTABXANALARININ NADİR VƏ QİYMƏTLİ NƏŞRLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ ELEKTRONLAŞDIRILMASI

İxtisas: 3356.01– "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq"
Elm sahəsi: Tarix

İddiaçı: **Elçin Gülaməddin oğlu Gülalıyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru
**Aybəniz İbrahim qızı Əliyeva- Kəngərli**

Rəsmi opponentlər: tarix üzrə fəlsəfə doktoru, professor
**Kərim Məhəmməd oğlu Tahirov**

tarix üzrə fəlsəfə doktoru
**Şəfəq İsrafil qızı İslamova**

tarix üzrə fəlsəfə doktoru
**Nigar Nürəddin qızı İsmayılova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A. A. Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: ____________ tarix üzrə fəlsəfə doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: ____________ tarix elmləri doktoru, professor
**Xəlil İsmayıl oğlu İsmayılov**

# I DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:**Müstəqillik şəraitində Azərbaycan Respublikasında kitabxanalar spesifik milli ənənələri qorunmaqla bərabər, informasiya texnika və texnologiyalarının imkanlarından əhəmiyyətlinəticələr əldə etmişdir vəən böyük sosial funksiyaları özündə ehtiva edən institutlara çevrilmişdir. Təsadüfi deyildir ki, 28 dekabr 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş və 12 mart 1999-cu ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə qüvvəyə minmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun I fəslinin I maddəsində deyilir: "*Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi, çap əsərləri və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur*".[1]

Yuxarıda təqdim olunan qanuna əsaslanaraq qeyd edə bilərik ki, kitabxanalar mədəniyyətin mühüm sahəsi kimi milli-mənəvi irs olan nadir və qiymətli nəşrləri mühafizə edir. Kitab abidələri əlyazma vəsaitləri, xüsusi tarixi, elmi və mədəni dəyəri olan, qeydiyyata alınan, saxlanması və istifadəsi üçün xüsusi qayda ilə çap edilmiş nəşrlərdir. Nadir nüsxələrə çevrilmiş əlyazmalar, kitab, qəzet və jurnalların çoxu bugünki nəsillərə əmanət qalıb və tariximizin, iqtisadiyyatımızın, mədəniyyətimizin müxtəlif mərhələlərdə inkişafı barədə məlumat verən yeganə mənbələrdir.

Azərbaycan Respublikasının kitabxanalarında saxlanılan nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi, mühafizəsi və istifadəsinin meyarları bir çox hüquqi sənədlərdə, o cümlədən,1995-ci ildə qəbul edilmiş ilk demokratik milli ana qanunumuz olan "Azərbaycan Respublikasının Konstitusiyası"nda, "Mədəniyyət haqqında" (1998), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi

[1]Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanunu. Azərbaycan, 1998, 19 iyun, s.1

haqqında” (1998), “Kitabxana işi haqqında” (1998), “Nəşriyyat işi haqqında” (2000) qanunların qəbul edilməsi və tətbiqi, eləcə də, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” (2007) və “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cu illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında” (2008) Azərbaycan Respublikası prezidentinin sərəncamlarında və s. əks etdirilmişdir.

Xüsusilə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 oktyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nda yuxarıda qeyd edilən və dissertasiya işində kompleks şəkildə təhlil edilən konkret hüquqi-elmi müddəalar, müvafiq strukturlar, eləcə də, kitabxanaşünaslıq elminin mütəxəssisləri, kitabxanaçılıq təhsili verən müəssisələr qarşısında qoyulan konkret vəzifələr problemin aktuallığını yüksək səviyyədə şərtləndirən amil kimi xarakterizə olunur.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 11 aprel tarixli 2106 nömrəli, “Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında” adlı Sərəncamdan irəli gələrək Mədəniyyət və Turizm Nazirliyində respublikanın kitabxana və muzeylərində saxlanılan nadir və qiymətli kitabların müəyyənləşdirilməsi işinə başlanmışdır.

Qeyd edək ki, 2011-ci il 1 dekabr tarixinədək Dövlət reyestrində 3483 adda müxtəlif formalı kitab abidəsi qeydiyyata alınmışdır ki, onlardan 1320 adda kitab Mədəniyyət Nazirliyinin müəssisələrində, 1919 adda kitab Nazirliyə tabe olmayan kitabxanalarda, arxiv və muzeylərdə, 244 adda kitab abidəsi şəxsi kolleksiyalarda saxlanılır.

Aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, nadir və qiymətli kitablar təkcə Bakı şəhərində fəaliyyət göstərən mədəniyyət müəssisələrində deyil, eyni zamanda Respublikanın digər şəhər və rayonlarında fəaliyyət göstərən kitabxanalarda və ayrı-ayrı şəxslərin kolleksiyalarında da mühafizə edilir. Belə ki, 90 adda kitab abidəsi Naftalan şəhərində, 131 adda kitab abidəsi Salyan rayonunda, 22 adda kitab abidəsi Siyəzən rayonunda, 10 adda kitab abidəsi Ağcabədi rayonunda, 18 adda kitab abidəsi Saatlı rayonunda

fəaliyyət göstərən kitabxanalarda saxlanılır. Bundan əlavə tarix-diyarşünaslıq muzeylərində 98 adda kitab Gəncə şəhəri üzrə, 4 adda kitab Şəki şəhəri üzrə, 8 adda kitab Şirvan şəhəri üzrə, 76 adda kitab Qax rayonu üzrə, 13 adda kitab Ağdaş rayonu üzrə, 22 adda kitab Neftçala rayonu üzrə, 60 adda kitab Şamaxı rayonu üzrə, 12 adda kitab Şəmkir rayonu üzrə, 22 adda kitab Qəbələ rayonu üzrə, 8 adda kitab Abşeron rayonu üzrə, 7 adda kitab Ucar rayonu üzrə, 6 adda kitab Masallı rayonu üzrəkitab abidəsi vardır.

Azərbaycan Respublikasında şəxsi kolleksiyalarda 244 kitab abidəsi,o cümlədən Neftçala rayonu yazıçı-alim İmamverdi Əbilovun şəxsi kitabxanasında 22 adda, Ağstafa rayonu xalq şairi Hüseyn Arifin şəxsi kolleksiyasında 21 adda, Lənkəran şəhəri Hacı Mirhaşim Talışlının şəxsi kolleksiyasında 13 adda,Naftalan şəhəri Sarıgül Əliyevanın şəxsi kolleksiyasında 12 adda və s. kitab abidəsi müəyyənləşdirilmişdir.

Prezident Kitabxanasında 1088 adda, Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında 577 adda, BDU-nun Elmi Kitabxanasında 287 adda, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında 143 adda, Azərbaycan Texniki Universitetinin kitabxanasında 48 adda, Azərbaycan Pedaqoji Universiteti 190 adda, Azərbaycan DövlətMədəniyyət və İncəsənət Universitetinin kitabxanasında 36 adda, Azərbaycan Dillər Universitetinin kitabxanasında 8 adda, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Respublika Elmi Tibb Kitabxanasında39 adda, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Respublika Elmi Texniki Kitabxanasında 30 adda, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Respublika Elmi Kənd Təsərrüfatı kitabxanasında 50 adda, Cəfər Cabbarlı adına Dövlət Teatr Muzeyində 79 adda, Lətif Kərimov adına Azərbaycan xalçası və xalq Tətbiqi sənəti Dövlət Muzeyində 39 adda, Musiqi Mədəniyyəti Dövlət Muzeyində 4 adda, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeçiliyində olan kitabxanalarda 14 adda, şəhər (rayon) mərkəzləşdirilmişkitabxana sistemlərində 271 adda, şəhər (rayon)

tarix-diyarşünaslıq və ev muzeylərində 389 adda kitab abidələri qeydə alınmışdır.[2]

Azərbaycan kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılmasına dair bir sıra əsərlər həsr olunsa da, bu problemin milli mədəniyyət və kitabxana tariximizin müstəsna tərkib hissəsi kimi daha ətraflı işlənməsi problemini meydana çıxarmışdır. Bütün bu problematik elmi-nəzəri və metodoloji məsələlərin araşdırılması hazırkı dissertasiya işinin aktuallığını şərtləndirən amillər sistemi kimi olduqca əhəmiyyətlidir.

Problemin mənbəşünaslığının öyrənilməsi göstərir ki, "Azərbaycan kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılması" mövzusunun ayrı-ayrı aspektləri görkəmli alim və tədqiqatçıların elmi əsərlərində müəyyən qədər araşdırılmış, bu sahəyə dair bir sıra tədqiqat əsərləri,çoxsaylıelmi məqalələr yazılmışdır.Azərbaycan kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılmasını ilk dəfə elmi cəhətdən tədqiqat işlərində milli kitabxanaşünaslıq elminin banisi, kitabxana işi tarixinin görkəmli tədqiqatçısı, ali kitabxanaçılıq təhsilinin təşkilatçısı və nəzəriyyəçilərindən biri, Əməkdar elm xadimi, tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin "Fəxri Professoru" Abuzər Xələfovaraşdırmışdır. Alimin zəngin elmi yaradıcılığında, o cümlədən, Azərbaycanda kitabxana işinin tarixinə həsr etdiyi namizədlik və doktorluq dissertasiyalarında, ikicildlik "Kitab-xanaşünaslığa giriş", üçcildlik "Azərbaycanda kitabxana işinin tarixi"[3], "Heydər Əliyev və Azərbaycanda kitabxana işi"[4] adlı

---

[2]http://www.elm.az/az/presidium/library/index.htm

[3]Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik / 2 cilddə, I cild, Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004, 328 s.;

Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi:Dərslik/ 2 cilddə, I cild, XX əsrin I yarısında Azərbaycanda kitabxana işinin tarixi, Bakı: BUN, 2007, 552 s.;

Xələfov A.A. Azərbaycanda Kitabxana işinin tarixi: Dərslik: / 3 cilddə, III cild, XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi, Bakı, BUN, 2010, 432 s.;

Xələfov A.A Azərbaycanda kitabxana işinin tarixindən. Bakı:Bakı Universiteti nəşriyyatı, 1960, 94 s.;

tədqiqat işlərində, "Kitabxana və cəmiyyət", [5] "BDU-nun Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində" adlı monoqrafiya və dərsliklərində [6], eyni zamanda dövri mətbuatda [7] dərc edilmiş məqalələrində həmin problemin ayrı-ayrı istiqamətləri geniş şərh edilmişdir. Bundan başqa, ölkəmizin milli kitabxanaşünaslıq məktəbinin digər nümayəndələrindən prof. Bayram Allahverdiyev[8],

---

[4]Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312 s.;

Xələfov A.A Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. Bakı:Bakı Universiteti nəşriyyatı, 2009, 185 s.;

[5]Xələfov A.A. Kitabxana və cəmiyyət. Monoqrafiya. Bakı:Azərnəşr, 2011, 348 s.;

Xələfov A.A. BDU-nun Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində.Monoqrafiya.Bakı:BUN,2009,210 s.; Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri: mulahizələr, tərtiblər və proqnozlar. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 106 s.;

Xələfov A.A Informasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri "Respublika" qəzeti, 2002, 17 aprel;

[6] Xələfov A.A. Qurbanov A.İ Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik/ Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007, 200 s.

[7]Xələfov A.A. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, təcrübi və metodik jurnal,Bakı Universiteti Nəşriyyatı, 2004, №2, s.3-11.;

Xələfov A.A İnformasiya cəmiyyəti və kitabxana işi // Elmi əsərlər, Bakı Universiteti xəbərləri,Humanitar elmlər seriyası. Bakı Universiteti Nəşriyyatı, 2004, №, s 316-326;

Xələfov A.A. Azərbaycan Xalq Cümhuriyyəti dövründə kitabxana işi (1918-1920-ci illər) // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal,Bakı Universiteti Nəşriyyatı, 2017.№3 (24), s.8-23.;

[8]Allahverdiyev B.V. XVIII əsrin birinci yarısında Azərbaycanda əlyazma kitabının inkişafının bəzi xüsusiyyətləri // Elmi əsərlər, Kitabxanaşünaslıq və biblioqrafiya, Bakı Universiteti Nəşriyyatı, 1970, №1, s 45-50.;

Allahverdiyev B.V. Texniki kitablarımızın bu günü və inkişaf perspektivləri// "Kitablar aləmində" jurnalı, Bakı Universiteti nəşriyyatı,1991,№3 (105),s2-7.;

Allahverdiyev B.V. Kitab nəşri: problemlər, mülahizələr təkliflər // "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal. Bakı Universiteti nəşriyyatı, 2006, №3 (51), s 180-181.;

Allahverdiyev B.V. XX əsr Azərbaycan kitabşünaslığına nəzəri baxış // Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, Bakı Universiteti nəşriyyatı, 2008, №1, s 3-8.;

prof. Xəlil İsmayılov elmiməqalə[9] və elmi tədqiqat əsərlərində[10], prof. Zöhrab Əliyevdərslik[11] və elmi məqalələrində[12], dos. Hacı

---

Allahverdiyev B.V. Azərbaycan kitabşünaslığının tarixinə bir nəzər (biblioqrafik göstərici). Bakı: Bakı Universiteti nəşriyyatı, 2003. s 7-21.;
Allahverdiyev B.V. Kitabçılıqla bağlı elm inkişaf etsə, intellektin səviyyəsi daha yaxşı olar . "Palitra" qəzeti, 2010, 15 oktyabr.;
Allahverdiyev B.V. Müstəqillik şəraitində kitabçılıq işinin müasir problemləri // Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2011, №2. s. 3-10.;
[9]İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004, 416 s.;
İsmayılov X. Azərbaycanda kitabxana işi üzrə ilk metodik mərkəzlər (1-ci məqalə) // Kitabxanaşünaslıq və biblioqrafiya, Bakı, 1998, N.I, s. 3-6.;
İsmayılov X. Milli kitabxana Azərbaycan elm və mədəniyyətinin xəzinəsidir. // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, təcrübi jurnal, Bakı, 2009;
İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı, 2009, №1, s.27-39.;
İsmayılov X.İ. Kitabxana menecmentinin əsasları. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005, 199 s.;
İsmayılov X.İ. Kitabxana menecmenti və onun hüquqi əsasları.// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, təcrübi jurnal, Bakı,2004, s.15-23;
İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin strateji əsasları. // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, təcrübi jurnal, Bakı, 2008.;
İsmayılov X.İ. Kitabxanaların strateji planlaşdırılması / BDU-nun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans. Bakı, 2009, 30-31 oktyabr ;
[10]İsmayılov X.İ. Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti/ Bakı, Nurlar, 2009, 319 s.;
İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə olunması.Bakı:Nurlar,2010, 328 s.;
[11]Əliyev Z. H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti/ Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 143 s. ;
Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik/ Bakı:Bakı Universiteti nəşriyyatı, 2007,185 s.
[12]Əliyev Z.H.Biblioqrafik informasiya və onun elmi mahiyyəti// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal,1998,№1, s.19-27
Əliyev Z.H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal, 2004, №1, s. 82-87 ;
Əliyev Z.H. Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri // Kitabxanaşunaslıq və biblioqrafiya: elmi nəzəri, metodiki və təcrübi jurnal, 2009, № 1, s.91-98;

Həsənov dərs vəsaiti[13] və elmi məqalələrində[14], dos. SahibRzayev[15], dos. Nadir İsmayılov[16], fil.e.d. Aybəniz Əliyeva-Kəngərli tədqiqat əsərləri[17] və elmi məqalələrində[18], dos. Knyaz Aslan[19], eləcə də,

---

Əliyev Z.H. Müasir dövrdə Azərbaycanda elmi-tədqiqat işçiləri və mütəxəssislərin biblioqrafik təminatının əsas istiqamətləri // Azərbaycanda elmi-işçilərə kitabxana-biblioqrafiya xidməti, Tematik məcmuə, Bakı,ADU, 1985, s.19-55 ;
Əliyev Z.H, Məmmədov Ə. Biblioqrafik işin kompüterləşdirilməsinin nəzəri və praktiki əhəmiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal, Bakı Universiteti Nəşriyyatı,1998, №2, s.63-69

[13]Həsənov H.M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi: Dərs vəsaiti/ Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, 143 s. ;
Həsənov H.M. İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi. Bakı: Azərbaycan SSR EA, 1965, 170 s.

[14] Həsənov H.M. Kitabxana fondlarının komplektləşdirilməsi və onun kitab verilişinə təsiri // Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, Bakı Universiteti nəşriyyatı, 1974, № 2, s. 16-21.;
Həsənov H.M. Kitabxana fondunun öyrənilmə sistemi // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, 2002, №2, s. 50-56.

[15]Rzayev S. Kitabxana xidməti: Dərslik/ Bakı: Turan evi, 2009, 337 s.

[16] İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: biblioqrafik vəsaitlərin göstəricisi. Bakı: Nurlan, Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2003. 110 s.

[17] Əliyeva-Kəngərli A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. Bakı:Elm, 2007, 230 s.;
Əliyeva-Kəngərli A.Azərbaycan folkloru və kitab mədəniyyəti.Bakı:Elm,2008,339

[18]Əliyeva-Kəngərli A.İ. AMEA-nın Mərkəzi Elmi Kitabxanası: elmi və mədəni dəyərlər xəzinəsi.“525-ci qəzet”, 2011, 2 mart, s.6.;
Əliyeva-Kəngərli A.İ. AMEA Mərkəzi Elmi Kitabxanası EBSCO məlumat bazasından istifadə etmək hüququ qazanmışdır. “Xalq” qəzeti, 2004, 21 avqust.;
Əliyeva-Kəngərli A.İ. AMEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində // Elm və həyat, 2011, №3, s. 27-29.;
Əliyeva-Kəngərli A.İ. Azərbaycanın beynəlxalq elmi-mədəni əlaqələrində AMEA Mərkəzi Elmi Kitabxanasının rolu //AMEA MEK-in Elmi əsərləri, 2003, IV buraxılış, s. 6-12.

[19] Aslan K. Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək): Dərs vəsaiti/ Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010, 448 s.;
Aslan K. İnformasiya cəmiyyəti şəraitində gənclərə kitabxana xidmətinin müasir problemləri // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal, Bakı Universiteti Nəşriyyatı, 2010, №3, s. 15-25.

Məmmədəli Müsəddiq[20]elmi tədqiqat işlərində problemin müxtəlif istiqamətlərinə dair bir sıra əsərlər çap etdirmişvə onları sistemləşdirməyə çalışmışlar.

Hazırki dissertasiya işində Azərbaycan Respublikasının müstəqilliyi illərində ilk dəfə olaraq Respublika kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyələşdirilməsi və elektronlaşdırılması kompleks şəkildə araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti:**Tədqiqatın obyektiniAzərbaycan kitabxanalarındakı nadir və qiymətli nəşrlərin müvafiq meyarlar əsasında müəyyənləşdirilməsi, sistemləşdirilməsi və elektronlaşdırılması mexanizminin yaradılması üsulları təşkil edir. Tədqiqat sahəsi üzrə sənədlərin təhlili, sistemli yanaşma metodu, araşdırılan problemə dair ədəbiyyatın nəzəri və təcrübi təhlili tədqiqat işinin predmetinə aiddir.

**Tədqiqatın məqsəd və vəzifələri:**Dissertasiya işinin qarşısında duran başlıca məqsəd Azərbaycan kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi, müvafiq elmi-nəzəri, hüquqi və

---

[20]Müsəddiq M. Milli mədəniyyətimizin zəngin xəzinəsi // 70 il xalqın xidmətində (Materiallar məcmuəsi), Bakı Universiteti nəşriyyatı, 1993, s. 12-16.;
Müsəddiq M. Azərbaycanda kitabxana tarixindən // M.F.Axundov adına Kitabxananın əsərləri. Bakı, 1980, buraxılış 1, s.41-58;
Müsəddiq M. Milli xəzinəmizin yerləşdiyi ünvan. M.F.Axundov adına Milli Kitabxana haqqında.” Azərbaycan” qəzeti, 2004, 5dekabr. s.4.;
Müsəddiq M. Azərbaycan kitabı və onun zənginləşməsi. // M.F.Axundov adına Azərbaycan Respublikasının Dövlət Kitabxanasının “Azərbaycan kitabı” (Arxiv) fondu haqqında //Bakı, Mədəni Maarif işi. 1976, №4, s.46-47;
Müsəddiq M., Bəsirə A. Azərbaycan kitabı arxiv fondu haqqında bəzi qeydlər // Kitabxana işçisinə kömək, 1973, № 4, s.27-31;

metodoloji müddəalar əsasında sistemli elmi təhlili, bu nəşrlərin elektronlaşdırılması texnologiyasının mexanizmi və təkmilləşdirilmə üsullarının araşdırılması və öyrənilməsidir.Tədqiqat zamanı qarşıya qoyulan əsas məqsədə nail olmaq üçün müvafiq arxiv və hesabat materialları, dövrü mətbuatda dərc edilən məlumatlar, Azərbaycan kitabxanalarında mövcud olan nadir və qiymətli nəşrlər haqqında bəhs edən bütün mövcud sənədlər sistemli şəkildə öyrənilmişdir.

**Tədqiqatın metodları:**Dissertasiya işində bir-birini tamamlayan kompleks metodlardan istifadə edilmişdir. Eyni zamanda tədqiqat sahəsi üzrə sənədlər təhlil edilmiş, bu zaman sistemli yanaşma metodu əsas götürülmüş, tarixilik və müqayisəli statistik təhlil metodları əsasında araşdırılan problemə dair ədəbiyyatın nəzəri və təcrübi təhlilinə diqqət yetirilmişdir. Tədqiqat prosesində Azərbaycan Respublikasının kitabxanalarında mövcud olan nadir və qiymətli ədəbiyyat, onun elektronlaşdırılması mexanizminin yaradılması, sistemləşdirilməsi təhlil edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**Azərbaycan kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılması problemlərini araşdıran mütəxəssislərin bu sahədə apardıqları bir sıra tədqiqatlar, dövrü mətbuat materialları, elm, təhsil, maarif, mədəniyyət məsələləri üzrə müxtəlif növlü ədəbiyyat dissertasiya işinin əsas müddəalarını təşkil edir.

Tədqiqat zamanı müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakı qaydada sistemləşdirilmişdir:

- Nadir və qiymətli kitab anlayışının elmi-nəzəri və metodoloji əsaslarının müəyyənləşdirilməsi və meyarlarının ortaya qoyulması;
- Nadir və qiymətli kitabların müəyyən edilməsi və mühafizəsinin hüquqi tənzimlənməsi, dövlət reyestrinin araşdırmalara cəlb edilməsi məsələlərinin araşdırılması və sistemli ümumiləşdirilməsi;
- Milli kitabxananın fondunda saxlanılan nadir və qiymətli kitabları,onların tərtibatı xüsusiyyətlərinin müəyyənləşdirilməsi və ümumiləşdirilməsi;
- Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin "Prezident Kitabxanası"nda saxlanan nadir və qiymətli kitabların aşkar edilməsi;

- AMEA MEK-in fondunda saxlanılan nadir və qiymətli kitabların müəyyənləşdirilməsi və sistemli ümumiləşdirilməsi;

- BDU-nun Elmi Kitabxanasında saxlanılan nadir və qiymətli nəşrlərin tədqiqata cəlb edilərək sistemləşdirilməsi;

- AMEA Əlyazmalar İnstitutunda saxlanılan nadir və qiymətli kitabların araşdırılması və ümumiləşdirilməsi;

- Respublikanın kütləvi kitabxana şəbəkəsi sistemində nadir və qiymətli kitabların tədqiqata cəlb edilərək müəyyənləşdirilməsi və sistemləşdirilməsi;

- Respublika əhəmiyyətli elmi sahəvi kitabxanaların fondunda olan nadir və qiymətli kitabların araşdırılması və ümumiləşdirilməsi;

- Nadir və qiymətli kitabların rəqəmsallaşdırılması mexanizmi yollarının öyrənilməsivə elektron kataloqunun yaradılması;

- Nadir və qiymətli kitabların elektron kitabxanasının yaradılması texnologiyasının araşdırılması və sistemləşdirilməsi;

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyanın elmi yeniliyi aşağıdakı amillərlə səciyyələnir:

- Dissertasiya işi arxiv sənədləri, faktiki və statistik materialların elmi dövriyyəyə daxil edilməsi əsasında Azərbaycan respublikasının kitabxanalarındakı nadir və qiymətli nəşrlərin elektronlaşdırılmasını əks etdirən ilk kompleks xarakterli elmi tədqiqat əsəridir;

- Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan Respublikasının kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılması problemləri sistemli şəkildə tədqiq edilmişdir;

- Dissertasiya işində Azərbaycan Respublikasının demək olar ki, bir çox kitabxanalarının fondlarında olan nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi problemləri üzərində ciddi elmi tədqiqatlar aparılmış, onların elektronlaşdırılması texnologiyası mexanizminin formalaşdırılması istiqamətində meydana çıxan müvafiq elmi müddəalar təhlil edilmiş, nəzəri ümumiləşdirilmələr aparılmışdır;

- Kitab və kitabxana mədəniyyətinin bu sahəsi mədəniyyət fenomeni kimi geniş təhlil edilmiş, müasir elmşünaslıq üçün əhəmiyyətli elmi-nəzəri müddəalar tədqiqat obyektinə çevrilmişdir;

- Tədqiqat işində ilk dəfə olaraq nadir və qiymətli kitab anlayışının elmi-nəzəri və metodoloji əsasları şərh olunmuşdur;

- Dissertasiyada nadir və qiymətli kitabların müəyyən edilməsinin meyarları ilk dəfə olaraqsistemli təhlilə cəlb edilmişdir.

- Tədqiqatda nadir və qiymətli kitabların müəyyən edilməsi və mühafizəsinin hüquqi tənzimlənməsi məsələləri üzərində ilkdəfə olaraq ən geniş miqyaslı təhlil və ümumiləşdirilmə verilmişdir;

- Tədqiqat işində ilk dəfə olaraq Azərbaycanda milli nadir kitabların tərtibatı xüsusiyyətləri kompleks tədiqiqatlara cəlb edilərək əhəmiyyətli nəzəri ümumiləşdirmə ortaya qoyulmuşdur;

- Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan Respublikasında nadir və qiymətli kitabların dövlət reyestrinin əhatəsi ölkə kitabxanalarının (M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin "Prezident Kitabxanası", AMEA-nın Mərkəzi Elmi Kitabxanası, BDU-nun Elmi Kitabxanası, AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu, Respublika əhəmiyyətli elmi sahəvi kitabxanalar, respublikanın kütləvi kitabxana şəbəkəsinə daxil olan kitabxanalar) nadir və qiymətli nəşrlərinin araşdırılması, və ümumiləşdirilməsi fonunda hərtərəfli təhlil edilmişdir;

- Dissertasiya işində ilk dəfə olaraq nadir və qiymətli kitabların rəqəmsallaşdırılması mexanizmi haqqında kompleks sistemli elmi şərh verilmişdir;

- Tədqiqat işində nadir və qiymətli kitabların elektron kataloqunun və elektron kitabxanasının yaradılmasıtexnologiyasının elmi-nəzəri, metodoloji və praktiki mexanizmi ilk dəfə geniş araşdırmalara cəlb edilmiş, əhəmiyyətli nəzəri ümumiləşmə aparılmışdır.

- Tədqiqatda Azərbaycan Respublikasının kitabxanalarında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılması aspektindəbir sıra  tövsiyə və təkliflər təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti:**Tədqiqatın nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının Konstitusiyası, təhsil, mədəniyyət, kitabxana işi, informasiya texnologiyaları ilə əlaqədar qəbul edilmiş qanunlar və digər normativ-hüquqi aktlar, kitabşünaslıq, mədəniyyətşünaslıq, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq, mədəniyyət tarixi, sənədşünaslıq və ədəbiyyatşünaslıq sahəsində aparılmış tədqiqatlar, bu sahələr üzrə fəaliyyət göstərən

alimlərin zəngin təcrübəsi nəticəsində meydana çıxan elmi-tədqiqat işlərinin tövsiyələri təşkil edir.

Dissertasiyanın elmi nəticələrindən, irəli sürülən təklif və tövsiyələrdən aşağıdakı istiqamətlərdə istifadə edilə bilər:

- Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, mədəniyyətşünaslıq, mədəniyyət tarixi, sənədşünaslıq və digər yaxın elm sahələrində nadir və qiymətli nəşr anlayışının elmi-nəzəri və metodoloji əsaslarının, meyarlarının müəyyənləşdirilməsində;
- İnformasiya tələbatçılarının nadir və qiymətli nəşrlərlə təminatında optimal xidmət texnologiyasının formalaşdırılmasında;
- Kitabxana fondlarında nadir və qiymətli nəşrlərin mühafizəsi və istifadəsinin effektiv təşkili, elektronlaşdırılması, onların elektron kataloqunun və elektron kitabxanasının yaradılması prosesindəvə s.

**Tədqiqatın aprobasiyası və tətbiqi:**Dissertasiya işinin əsas müddəaları və elmi nəticələri ümumiləşdirilmiş şəkildə iddiaçının beynəlxalq və respublika elmi-praktiki konfranslarında etdiyi çıxışlarında aprobasiyadan keçmişdir. Belə ki, müəllifin – Respublika və -- Beynəlxalq konfransdakı (Ukrayna) məruzələri, elmi məqalə və tezislər kimi çap olunmuşdur. Bundan başqa – elmi məqalə (1-i xaricdə - Rusiya olmaqla) AAK-ın tövsiyə etdiyi elmi jurnallarda nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:**Dissertasiya işiAzərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu:**Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"na uyğun şəkildə hazırlanmışdır.

Dissertasiyanın struktur bölmələri olan Giriş 19 277 işarə, I fəsil - 61 848 işarə, II fəsil - 106 313 işarə, III fəsil - 75 536 işarə, nəticə 11 727 işarədən ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 274 701 işarəni təşkil edir.

Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, cədvəllər, şəkillər, əlavələr və ixtisarların siyahısından ibarətdir.

# II DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**"ində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, approbasiyası və tətbiqi, dissertasiyanın həcmi və strukturu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli **"Nadir və qiymətli kitab anlayışı: elmi-nəzəri və metodoloji əsasları"** adlanır. Bu fəslin **"Nadir və qiymətli kitab anlayışının nəzəri-metodoloji əsasları"** adlanan birinci yarımfəslindənadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsinin metodologiyasının elmi-nəzəri əsasını dərketmə prosesinə yönəlmiş dünya fəlsəfəsi, məntiq elmi, xüsusi kitabxanaşünaslıq və kitabşünaslığın qanun və prinsipləri təşkil edir. Nadir kitab ictimai əhəmiyyətli elmi, mədəni və ya tarixi dəyərləri təmsil edən görkəmli mənəvi, estetik, çap və sənədləşdirmə xüsusiyyətlərinə malik nəşrlərin xüsusi növüdür. Bütün kitabxanalarda, eləcə də nadir fondların saxlanıldığı təşkilatlarda müəyyən qaydalar tətbiq edilir, hətta onlara çıxış təmin etmək üçün məhdudiyyətlər mövcuddur. Ənənəvi olaraq elmi ictimaiyyətin kiçik bir hissəsi, o cümlədən tarixçilər, biblioqraflar və bibliofillər tərəfindən nadir kitaba tələbat mövcuddur. Geniş oxucu kütləsi, xüsusilə də gənclər üçün nadir kitablar önəmli əhəmiyyət kəsb etmir və gənclərdə bu tip ədəbiyyata maraq yalnız onun dizaynına əsasən yaranır. Reklam nəticəsində və ya öz-özünə kütləvi kommunikasiya sahəsində təqdim edilən köhnə kitablar nadir kitablara çevrilir.

Nadir və qiymətli yeganə nüsxəli kitab abidələri ölkənin mədəniyyət əmlakının Dövlət reyestrində qeydiyyatdan keçən Milli, dövlət kitab saxlayıcılarında, habelə şəxsi kolleksiyalarda yeganə nüsxədə olan nəşrlər və materiallar hesab olunur. Tarixi və ədəbi mədəni dəyərlərinə görə kitab abidələri dünya əhəmiyyətli (ümumbəşəri), milli və yerli əhəmiyyətli kateqoriyalara bölünürlər. Ölkə əhəmiyyətli kitab abidələri müəyyən ölkənin, millətin tarixi-mədəni irsini öyrənmək üçün mühüm əhəmiyyət kəsb edən abidələr hesab olunurlar.Yerli əhəmiyyətli kitab abidələri bu və ya digər etnik

qrupların kompakt halında yaşadığı əraziləri əhatə edən regionlar üçün xüsusi əhəmiyyət kəsb edən abidələr hesab olunurlar.

Beləliklə, nadir və qiymətli nəşrlərin elmi-metodoloji əsaslarının araşdırılması prosesində belə bir nəzəri qanunauyğunluq ortaya çıxır ki, nadir və qiymətli nəşrlərin elmi-metodoloji əsaslarını fəlsəfə, məntiq elmi, ictimai və humanitar elmlərin bir sıra metodoloji müddəaları, ümumi və xüsusi kitabxanaşünaslıq qanun və prinsipləri, kitabxanaçılıq işinin başlıca praktiki müddəaları, eləcə də kitabşünaslığın qanun və prinsipləri təşkil edir.

**"Nadir və qiymətli kitabların müəyyənləşdirilməsinin meyarları"** adlanan ikinci yarımfəsldə kitabxanaların ən mühüm fəaliyyət sahələrindən biri kitabın dəyərini müəyyənləşdirilmişdir.Muzey və arxivlərdən fərqli olaraq kitabxanalar nadir və qiymətli nəşrləri yalnız qorumaq deyil, eyni zamanda oxuculara həmin nəşrlərlə əlaqədar informasiya xidməti göstərmək funksiyasını da  yerinə yetirir.

Kitab abidələrinin müəyyənləşdirilməsi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən aşağıdakı xüsusiyyətlərinə görə həyata keçirilir:

- kitabın nəşr (əlyazmanın yazılması) tarixi;
- abidənin maddi, mənəvi və elmi dəyərini özündə əks etdirən funksional (unikallıq, qeyri-adilik, memoriallıq) əlamətləri;
- nəşrin sayı, yayılma coğrafiyası, nadir və qiymətli olması;

Kitab abidələri nadir kitablara onlar da kolleksiyalara bölünür.

Nadir kitab əlyazmaları hər bir əlyazma kitabını və çap olunmuş nəşrlərin müvafiq xüsusiyyətlərə malik əlamətlərini əks etdirir.

- Kitab kolleksiyalarına yalnız qiymətli tarixi və mədəni obyektin xüsusiyyətləri ilə birlikdə və kitabxananın kolleksiyalarının və digər fond sahiblərinin, habelə şəxsi kolleksiyaların (şəxsi kitabxanaların) xüsusi növlərini təmsil edən vahid kitab abidələri və kitab kolleksiyaları daxildir. Tarixi və mədəni dəyərinə görə kitab abidələrinin səviyyələrə görə təsnifatı bu qaydadadır: 1) qlobal  2) dövlət  3) regional  4) yerli

Dünya səviyyəli kitab abidələri dedikdə, bütün insan cəmiyyətinin formalaşması və inkişafına xidmət edən universal əhəmiyyət kəsb edən əsərlər nəzərdə tutulur. Dövlət səviyyəli kitab abidələri isə

dövlət səviyyəsində elmin, tarixin və mədəniyyətin inkişafı üçün çox əhəmiyyətlidir.Yerli kitab abidələri yerli ərazi üçün xüsusi tarixi və mədəni dəyəri olan bütün növ nəşrləri nəzərdə tutur.

Kitabxana fondlarında nadir və qiymətli nəşrlər fondunda aşağıdakı dövrlərdə yoxlamalar aparılır:

- nadir fondlar - hər 3 ildə bir dəfə;
- qiymətli fondlar - 5 ildən bir dəfə;

**“Nadir və qiymətli kitabların müəyyən edilməsi və mühafizəsinin hüquqi tənzimlənməsi”**adlanan üçüncü yarımfəsldə Azərbaycan Respublikasında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi, mühafizəsi, bərpası və istifadəsi istiqamətində mühüm dövlət siyasəti həyata keçirilmiş, əhəmiyyətli tədbirlər görülmüşdür. 1995-ci ildə qəbul edilmiş ilk demokratik milli ana qanunumuz olan Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan dövləti tərəfindən “Mədəniyyət haqqında” (1998), “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” (1998), “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” (1998), 28 dekabr 1998-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilən və tətbiqi haqqında 12 mart 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən sərəncam imzalanan “Kitabxana işi haqqında”, “Nəşriyyat işi haqqında” (2000) qanunların qəbul edilməsi və tətbiqi, eləcə də, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” (2007) və “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cu illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında” (2008) Azərbaycan Respublikası Prezidentinin sərəncamları ümumilikdə ölkənin mədəniyyətinin, informasiya mühitinin, kitabxana-biblioqrafiya və informasiya fəaliyyətinin optimallaşdırılmasına, inkişafına və perspektiv gələcəyinə yönəlmiş böyük ümumdövlət tədbirləri kimi olduqca ciddi tarixi-mədəni və hüquqi-siyasi əhəmiyyət daşıyır.

“Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nda kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını,

mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin edilməsi fikri irəli sürülür.

Azərbaycan Respublikasında milli-mədəni irsin mühafizəsi və gələcək nəsillərə çatdırılması sahəsində dövlət siyasətinin müəyyən etdiyi qanunvericilik aktları və digər qanun və sərəncamlara müvafiq olaraq "Kitab abidələri haqqında" Əsasnamə hazırlanmışdır.Əsasnamə hazırlanarkən MDB ölkələrinin - Rusiya, Qazaxıstan, Belarus, Ukrayna və bir sıra Avropa ölkələrinin - Almaniya və Böyük Britaniyanın təcrübəsindən istifadə edilmişdir.Əsasnaməyə müvafiq olaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kitab abidələrinin müəyyənləşdirilməsinin əsas meyarları və xüsusi qeydiyyat formaları hazırlanmışdır. Kitab abidələrinin Reyestrində kitab abidələrinin qeydiyyatı bu abidələrin dövlət qeydiyyatı və dövlət mühafizəsinin təmin olunması məqsədi ilə həyata keçirilir.

Göründüyü kimi, nadir və qiymətli nəşrlər xalqın milli-mədəni sərvətinin mühüm tərkib hissəsi kimi dövlətin xüsusi himayəsindədir.

Dissertasiya işinin II fəsli**"Nadir və qiymətli kitablar milli mədəniyyətinelementi kimi"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. **"Nadir və qiymətli kitablar milli mədəniyyət kontekstində"** adlanan birinci yarımfəsldə nadir və qiymətli nəşrlərin cəmiyyətin, şəxsiyyətin, elmin, mədəniyyətin inkişafında müstəsna əhəmiyyəti vardır. Beləliklə, nadir və qiymətli nəşrlərin kitab mədəniyyətinin mühüm tərkib hissəsi kimi başlıca xarakteristikasını əsasən aşağıdakı kimi ümumiləşdirməyi məqsədəuyğun hesab etmək olar:

- Nadir və qiymətli nəşrlər öz xronoloji əhatəsinə, tarixi inkişaf yoluna və ümumi mədəni əhəmiyyətinə görə kitab növləri və tipləri içərisində orijinal əhəmiyyət daşıyır;
- Nadir və qiymətli nəşrlər xalqın milli-mədəni irsinin əhəmiyyətli obyekti kimi yüksək ideoloji və konseptual mahiyyətə malikdir;
- Nadir və qiymətli nəşrlər öz mədəniyyət göstəricilərinə, kulturoloji əhəmiyyətinə, funksional xarakteristikasına görə ümummilli mədəni irs siyahısında unikal mövqe tuturlar;

- Nadir və qiymətli nəşrlər xalqın milli identifikasiyasının (eyniləşdirilməsinin) müəyyən olunmasında müstəsna əhəmiyyətə malikdir;

- Nadir və qiymətli nəşrlər multikultural dəyərlərin təbliğində və istiqamətləndirilməsində, xalqların milli kimliyinin müəyyənləşdirilməsi və etnomədəniyyətlərin əlaqəli sisteminin yaradılmasında xüsusi tarixi-mədəni rola malik mədəniyyət abidələri kimi ciddi funksional mahiyyət kəsb edirlər;

- Nadir və qiymətli nəşrlər elmin inkişafına, elmi biliklərin mənbəşünaslığının müəyyənləşdirilməsinə, qədim elmi-nəzəri, ədəbi-bədii və fəlsəfi irsin inkişaf qanunauyğunluqlarının aşkara çıxarılmasında mühüm əhəmiyyət kəsb edir;

- Nadir və qiymətli nəşrlər ümumbəşəri klassik ideyaların, fikirlərin, nəzəriyyələrin, elmi-nəzəri, ədəbi-bədii və fəlsəfi konsepsiyaların əsrlərdən-əsrlərə, nəsildən-nəslə ötürülməsində kompleks əhəmiyyət kəsb edən kommunikasiya vasitələridirlər;

- Nadir və qiymətli nəşrlər müvafiq tarixi dövrün kitab mədəniyyətinin inkişaf səviyyəsi haqqında dolğun informasiya verən unikal mənbələrdir;

- Nadir və qiymətli nəşrlər aid olduğu zamanın kitabxanaçılıq fəaliyyətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi aspektində də əhəmiyyətli elmi-nəzəri və mədəni ədəbiyyat kimi mühüm dəyərə malikdirlər;

- Nadir və qiymətli nəşrlər xalqın mədəni inkişafının başlıca meylləri və təmayülləri haqqında dolğun informasiya verən unikal mənbələrdən hesab olunurlar;

- Nadir və qiymətli nəşrlər kitabxana fondlarının ən qiymətli hissəsi kimi müəyyən olunmuş qayda və üsullar əsasında mühafizə və istifadə olunurlar;

- Nadir və qiymətli nəşrlərin mühafizəsi, qorunması və istifadəsi müvafiq qanunvericilik təminatı sistemi ilə, normativ-hüquqi aktlarla tənzimlənir;

- Nadir və qiymətli nəşrlərə dəyən ziyana görə müvafiq subyektlər qanunla müəyyən olunmuş məsuliyyət daşıyır.

Göründüyü kimi kitab mədəniyyətinin mühüm tərkib hissəsi kimi nadir və qiymətli nəşrlər öz kompleks mahiyyəti etibarilə həm də xalqın ümumilli mədəniyyətinin, elminin, ideoloji fəlsəfəsinin ayrılmaz hissəsidir. Bu nəşrlərin ümumi tarixi-milli və kulturoloji dəyəri əvəzsizdir.

**"Milli nadir kitabların tərtibatı xüsusiyyətləri"** adlanan ikinci yarımfəsldə milli nadir kitabların qədim dövrdən bu günə qədər tərtibatı prosesində aşağıdakı xarakterik xüsusiyyətlər nəzərə alınmışdır:

- Mövcud ictimai-tarixi şəraitdən doğan ideya-bədii və siyasi motivlər;
- Maddi daşıyıcının bədii - estetik xüsusiyyətləri;
- Mövcud istehsal texnologiyasının başlıca imkanlarını kitabın estetik unikallığına və davamlılığının effektivliyinə yönəldilməsinin yüksək səviyyədə təşkili;
- Xalqın milli xüsusiyyətlərinin konkret kitabda həm məzmun, həm də forma baxımından qabarıq şəkildə əks etdirilməsi;
- Dövrün ideoloji konsepsiyasına müvafiq olaraq kitabın kommunikasiya sistemində optimal dövriyyəsinin maneəsiz təşkilinə imkan yaradan bir sıra mühüm məzmun və forma müddəaları ilə əlamətdar olması;
- Azərbaycan xalqının qədim tarixi köklərinə, milli-mənəvi dəyərlərinə, mental xüsusiyyətlərinə uyğun bədii-estetik tərtibatı;
- Millətin tarixi yaddaşına, ideoloji konsepsiyasına dair orijinal hesab olunan informasiyanın əks etdirilməsi;
- Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına və s. aid olan əcnəbi müəlliflər tərəfindən hazırlanan kitabların qiymətli və unikal informasiya nümunələri hesab edilməsi;
- Xalqımızın müxtəlif dövrlərdə yaşamış, fəaliyyət göstərmiş qabaqcıl şəxsiyyətlərinin həyatına, fəaliyyətinə, vətən və cəmiyyət qarşısındakı xidmətlərinə dair informasiyaları əhatə edən kitabların nadir ədəbiyyat hesab edilməsi;

- Müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin hüquq siyasətini və idarəetmə mexanizmini özündə ehtiva edən kitabların qiymətli və unikal ədəbiyyat hesab edilməsi;

- Adı dünya elmində məşhur olan müxtəlif alimlərin, eləcə də mədəniyyət və incəsənət xadimlərinin, siyasətçilərin, diplomatların, səyyahların Azərbaycanla bağlı fikir və xatirələrini əhatə edən kitabların milli mədəni irsin qiymətli nümunələri kimi qiymətləndirilməsi;

- Azərbaycan klassikləri ilə bağlı məşhur tənqidçilərin, dünya yazıçılarının, şairlərinin, ədəbiyyatşünaslarının fikir və mülahizələrinin toplandığı kitabların nadir və qiymətli əsərlər kimi qiymətləndirilməsi;

- Azərbaycanın təbii sərvətləri, flora və faunası, təbiəti, bütövlükdə coğrafiyası ilə bağlı klassik mənbələrin nadir və qiymətli nümunələr kimi dəyərləndirilməsi və qorunması;

- Dünya miqyasında şöhrət qazanmış, müxtəlif vaxtlarda Azərbaycan kitabxanalarında toplanmış xarici ədəbiyyatın nadir və qiymətli nümunələr hesab olunması;

- Klassik dillərdə, xüsusilə, latın, yunan, ən qədim şərq dillərində mövcud olan kitabların nadir və qiymətli ədəbiyyatın mühüm növü kimi qiymətləndirilməsi.

**“Azərbaycan Respublikasının kitabxana fondlarında saxlanılan nadir və qiymətli kitablar”** adlanan üçüncü yarımfəsldəM.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının (MEK), Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda və zəngin, nadir ədəbiyyatlara malik kitab kolleksiya sahiblərinin şəxsi kitabxanalarında qorunub saxlanılan nadir və qiymətli kitablar tədqiqata cəlb edilmişdir.

2004-cü ildə “Milli kitabxana” statusu almış M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında saxlanılan nadir və qiymətli kitablar sırasında xalqımızın ümummilli lideri H.Əliyevin müxtəlif vaxtlarda kitabxanaya bağışladığı kitablar əsas yer tutur.

Ümumiyyətlə, bu kitabxananın "Nadir nəşrlər" fondunda 16 dildə (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb, fars, latın, yunan, polyak, macar, bolqar, çin, serb, ivrit dillərində) ədəbiyyat mövcuddur. Onların arasında ən qədim nəşrlər XVI-XVII əsrlərdə çap olunmuş alman, latın və yunan dillərində olan kitablardır. Fondda mövcud olan nadir və qiymətli kitabları nəşr yerinə görə təhlil etdikdə məlum olur ki, 455 nüsxə kitab Azərbaycanda nəşr olunmuşdur. 13 adda qiymətli kitabın isə nəşr yeri məlum deyil.

MEK əsas fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli 3072 №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana – informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı", "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 №-li Fərmanı və "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"dan irəli gələn vəzifə və öhdəliklər ilə uzlaşdırır. Kitabxananın sənəd-informasiya resursları sistemində nadir və qiymətli kitablar mühüm yer tutur. Nadir kitab fondundakı sənədlərin ümumi sayı 15037 nüsxədir. Burada saxlanılan nadir və qiymətli əhəmiyyətə malik, yüksək tarixi-mədəni və elmi əhəmiyyətə malik zəngin kolleksiyalar mövcuddur. Həmin kolleksiyalar sırasına Tarix Muzeyinin kolleksiyası, "Miniatür nəşrlər kolleksiyası", "Dünyanın qədim xəritələri kolleksiyası", "Yevgeni Aleksandroviç Belyayevin şəxsi kolleksiyası", "Şərqşünas alim Bertels Yevgeni Eduardoviç", "Diplomat Zahid Yusifoğlu Hüseynzadənin şəxsi kolleksiyası", "İranşünas alim Boris Nikolayeviç Zaxoderin şəxsi kolleksiyası", "Naxçıvan Bölməsinin kolleksiyası", "Akademik Həsən Əliyevin kolleksiyası", "Professor Qara Əhmədovun kolleksiyası", "Rüfət Kasumovun kolleksiyası", "Əli Bayramovun kolleksiyası", "AMEA-nın müxbir üzvü Ənvər Şıxlinskinin kolleksiyası", "İmran Məmmədovun kolleksiyası", "Xalq yazıçısı Mirzə İbrahimovun kolleksiyası", "Professor Abbas Zamanovun kolleksiyası", "Professor Seyidağa Onullahinin kolleksiyası", "Professor Xudu Məmmədovun kolleksiyası", "Akademik İmam Mustafayevin kolleksiyası", "Akademik Mikayil

Hüseynovun kolleksiyası”, “Professor Rudolf İvanovun kolleksiyası”, “Professor Aleksandr Umnyaşkin kolleksiyası” daxildir.Burada Azərbaycanda və dünya ölkələrində fəaliyyət göstərən Diplomatik nümayəndəliklər tərəfindən Mərkəzi Elmi Kitabxananın Diplomatik Fonduna 20 adda kolleksiya hədiyyə olunmuşdur.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının əsası 1919-cu ilin sentyabrında, “Nadir kitablar və əlyazmaları şöbəsi”nin əsası 1922-ci ildə qoyulmuşdur. Fondda görkəmli Avropa alim və yazıçılarının, Misirin, Romanın tarixi, Şərq filosoflarının fəlsəfəsi, rus yazıçı və tənqidçilərinin qiymətli əsərləri, Yaxın Şərq, Zaqafqaziya respublikaları, Orta Asiya və Cənub-Şərqi Asiya üzrə zəngin fonda malik olan Azərbaycanşünaslıq və Şərq şöbəsi əsas yeri tutur. Kitablardan əlavə, həmin fondda XIII-XVIII əsrə aid 94 kitabda 102 qədim əlyazma saxlanılır. Türkiyə haqqında məlumat ədəbiyyatına geniş yer verilmişdir. Bunlar türk ensiklopediyası, texniki ensiklopediya və məlumat kitablarıdır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu dünyanın ən zəngin əlyazma xəzinələrindən biridir, buradakı ərəb qrafikalı yazılı abidələr məzmunu və nadirliyi baxımından ən məhşur kitabxana və muzeylərin eksponatlarından heç də geri qalmır. İnstitut orta əsr elmlərinin bütün sahələrinə aid Azərbaycan, türk, ərəb, fars və başqa dillərdə zəngin və nadir əlyazma kolleksiyalarına malikdir. İnstitutda həmçinin təbabətlə bağlı ərəbcə, farsca, azərbaycanca, türkcə əlyazmaların nüsxələri mövcuddur. Əlyazmalar İnstitutunda saxlanan ən qədim əlyazma IX əsrə aid edilən dəri üzərində yazılmış Quranın "Ən-Nisa" surəsinin bir hissəsidir.

Beləliklə, nadir və qiymətli kitab nümunələri qədim zamanlardan elm, mədəniyyət beşiyi olan Azərbaycanda zəngin kitab xəzinəsi və mədəni irs olduğunu təsdiq edir. Həmin zəngin mədəni irsin əhəmiyyətli bir hissəsini də ayrı-ayrı şəxslər tərəfindən təşkil edilən şəxsi kitabxanalarda toplanan nadir və qiymətli kitablar təşkil edir.

Dissertasiya işinin III fəsli “**Nadir və qiymətli kitabların rəqəmsallaşdırılması prinsipləri**” adlanır və iki yarımfəsildən ibarətdir. **“Nadir və qiymətli kitabların elektron kataloqunun**

**yaradılması xüsusiyyətləri”** adlanan I yarımfəsildəAzərbaycan Respublikasında elektron kataloqların ilk versiyasının, yəni maşınla oxunan kataloqun işlənilməsinə təqribən XXI əsrin əvvəllərində iri kitabxanalarda başlanmışdır. Bu istiqamətdə Rusiya Dövlət Ümumi Elmi-Texniki Kitabxanasının İRBİS (Rusiya İnteqral Kitabxana İnformasiya Sistemi) və Amerika Birləşmiş Ştatları Virciniya Texniki Universitetinin VTLS (Virginia Technical Library System) sistemi tətbiq edilməkdədir. Bunlardan Respublikamızda VTLS Mirzə Fətəli Axundov adına Milli Kitabxanada, İRBİS isə bir çox kitabxanalarda tətbiq edilir. Eləcə də RUSLAN, MİLLENİUM, ALEPH və s. kimi AKİS-lər respublikamızın bir çox müxtəlif kitabxanalarında tətbiq edilir.

Son illərdə avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri (AKİS-lər) istifadəçilərə daha səmərəli xidmət və informasiya axtarış baxımından daha da təkmilləşdirilmiş və ənənəvi (kartoçka) kataloqlara nisbətən üstünlüklər qazanmışdır. Elektron kataloq dörd komponentdən ibarət olan informasiya məhsuludur: proqram (əsas) komponenti; texnoloji (örtük, əhatə) komponenti; informasiya (interfeys) komponenti; aparat (ixtisaslaşma) komponenti. Elektron kataloqun əsas xüsusiyyəti onun müxtəlif avtomatlaşdırılmış işçi yeri (AİY) kimi istifadəsidir. Lakin bu, elektron kataloqun daxili funksiyasıdır. Əsas funksiya isə xarici funksiyalardır, yəni elektron kataloq istifadəçinin müraciətlərini, yaxud onun avtomatlaşdırılmış işçi yeri ilə təmin edilməsidir.

Nadir və qiymətli nəşrlərin kartoçka kataloqunun maşınla oxunan formaya keçirilməsinin hazırlıq mərhələsində aşağıdakı məsələlərin həlli ehtiva olunur:

- maliyyə və texniki təminat məsələlərini həll etmək;
- işçi qrupu yaratmaq;
- vacib hallarda bu işdə iştirak edən təşkilatlarla müqvilə bağlamaq;
- biblioqrfik yazıların keyfiyyəti və redaktəsi işi üçün məsul şəxsləri müəyyən etmək;
- icraçılar üçün müəyyən iş yerləri hazırlamaq;

- görüləcək işin qrafikini tərtib etmək;
- işin mərhələlər üzrə texnologiyasını müəyyənləşdirmək;
- işçi təlimatlar hazırlamaq.

Əgər işin görülməsi üçün əlavə aparat-proqram vasitələri (məsələn: konvertatorlar, rubrikatorlar, transliterasiyanın dəstəklənməsi vasitələri və s.) istifadə etmək nəzərdə tutulursa, onların da hazırlanması lazım gəlir. Elektron yazı massivinin yoxlanaraq qəbul edilməsi və istismara verilməsi qaydaları da hazırlıq mərhələsində işlənməlidir.

Dissertasiya işinin III fəslinin II yarımfəsli isə "**Nadir və qiymətli kitabların elektron kitabxanasının yaradılması texnologiyası**" adlanır. Burada müasir dünya elmi ədəbiyyatında "Elektron kitabxana" anlayışınasinonim kimi "virtual kitabxana","rəqəmsal kitabxana", "şəbəkə kitabxanası", "divarsız kitabxana", "hibrid kitabxana" anlayışları işlədilir.

Elektron kitabxanaların yaradılmasına dair transmilli proqram və layihələr işlənmişdir. Bunlardan Avropa Kommissiyasına üzv olan böyük yeddilərin o cümlədən, Rusiyanın da iştirak etdiyi "Библиотека универсалис", Avropa İttifaqının "Kitabxanalar üçün telematika", CANDEL" ("Avropa elektron kitabxanalarının nəzarətli müraciət şəbəkəsi"), "DECOMATE", ("Avropada əsərlərin elektron formada çatdırılması"), "DIEPER" ("Avropa elektron Dövrü Nəşrləri"), "Miracle" ("Korlar üçün musiqi kataloqu") və bir neçə digərlərini göstərmək olar. Sonuncu deyilən layihə Avropada korlar üçün multimedia elektron kitabxana mərkəzinin yaradılmasını və Brayl şriftini rəqəm formasında musiqi əsərlərininin onlayn rejimində istifadəsini nəzərdə tutur. Bu layihənin koordinasiya mərkəzi korlar üçün Hollandiya Milli Kitabxanasıdır. Layihədə Böyük Britaniya, İtaliya, İsveçrə və İspaniya iştirak edir. 2003-cü ildən bu layihə reallaşdırılmışdır.

Hazırda əsas problem kitabxanaların, yaxud digər istifadəçilərin naşirlərlə müəlliflik hüququ baxımından münasibətləri tənzim etmək deyil, müəlliflərlə naşirlərin münasibətlərinin səmərəli təşkilindən ibarətdir.

Dissertasiya işinin "**Nəticə**" hissəsində tədqiqatın yekunu olaraq

ümumiləşdirmə aparılmış, əldə olunan əsas elmi-nəzəri və təcrübi nəticələr göstərilmiş, mövcud problemlərin həlli yolları üçün konkret təklif və tövsiyələr verilmişdir.

Yekun olaraq qeyd etmək vacibdir ki, təqdim edilən təkliflər, elmi, nəzəri və təcrübi fəaliyyət istiqamətləri, tövsiyələr informasiyalaşdırılmış cəmiyyətin qlobal tələbləri kontekstində ölkə kitabxanalarımızın fondlarında mövcud olan nadir və qiymətli ədəbiyyatın etibarlı mühafizəsi, sosial istifadəsinin məqsədyönlü təşkili məqsədilə elektron texnologiyalar vasitəsilə rəqəmsallaşdırılması problemin kompleks həllində qarşıda duran problemlərin həlli istiqamətinə yönəlmişdir.

**Dissertasiya işinin əsas müddəaları iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi, saxlanılması, mühafizəsi və istifadəsi sahəsində dövlət siyasəti// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı nəşriyyatı, 2016, №1, s.120-124.
2. Nadir və qiymətli nəşrlər kitab mədəniyyətinin mühüm tərkib hissəsi kimi // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı nəşriyyatı, 2016, №2, s.172-177.
3. Milli nadir kitabların tərtibatı xüsusiyyətləri // Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2017, №1,s.394-396.
4. Nadir və qiymətli kitabların elektron kataloqunun yaradılması texnologiyası // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı nəşriyyatı, 2017, №1,s.160-177.
5. Nadir və qiymətli nəşrlərin elektron kitabxanasının yaradılması texnologiyası // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı nəşriyyatı, 2017, №2, s.98-106.
6. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında saxlanılan nadir və qiymətli kitablar // Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal, Bakı nəşriyyatı, 2018, №1,s.444-446.
7. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında saxlanılan nadir və qiymətli nəşrlər //

Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı nəşriyyatı, 2018, №1(4), s.92-103.
8. Редкие и ценные издания, хранящиеся в фонде Научной библиотеки Бакинского Государственного Университета // Национальный педагогичный университет имени М.П.Драгоманова. ВГО Украинская Академия Наук,Киев, 2018, 132 (№5), с.126-128.
9. Nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi və elektronlaşdırılması kitabxanaşünaslığın aktual elmi problemi kimi / "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" mövzusunda Respublika Elmi Konfransının materialları, Bakı, Mütərcim, 2017, 10 may, s.59-60.
10. Azərbaycanda kitab çapının tarixi / Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 80-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Klassik Azərbaycan ədəbiyyatı və İncəsənətinin Mill özünütəsdiqdə və Mərkəzi Asiyadakı Mədəni Tərəqqidə yeri. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyi. Bakı, Elm və Təhsil, 2020, 23-25 dekabr, s. 293-294.
11. Коллекция редких и ценных книг в центральной научной библиотеке Азербайджанской Национальной Академии Наук / Планирование, проведение и интерпретация результатов прогрессивных технологических изысканий. Сборник статей Международной научно-практической конференции. Аэтерна Научно-издательский центр, Пенза, 2020, 1 июль, с.18-24.

Международной научно-практической конференции. Аэтерна Научно-издательский центр,- Пенза:-, 1 июль, 2020,- с.18-24.

Dissertasiyanın müdafiəsi 23 dekabr 2022-ci il tarixində saat 13:00 Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ _________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 00.00.2022

Kağızın formatı: A5

Həcm: 6312 işarə

Tiraj: 100